*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır ∗ **İCTİMAİ-SİYASİ QƏZET** ∗ №003 (195) may 2020-ci il



## Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşündə cənab İlham Əliyevin nitqi

**TEZİSLƏR:**

- Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatına tam hüquqlu üzv qəbul olunmuşdur. Hərəkata üzv ölkələrin 2016-cı ildə Venesuelada keçirilmiş zirvə görüşündə 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. BMT-nin Baş Assambleyasından sonra ikinci ən böyük beynəlxalq təsisat olan və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzvlükdən qısa müddət sonra ölkəmizin sədrlik etməsi üzv dövlətlərin Azərbaycana olan etimadının və ölkəmizin beynəlxalq nüfuzunun artmasının, eləcə də Azərbaycanın qlobal səylərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsinin parlaq nümunəsidir.

- Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun videokonfrans vasitəsilə Zirvə görüşü keçirilmişdir.

- Zirvə görüşündə Əfqanıstan, Əlcəzair, Misir, İndoneziya, İran, Kuba, Nigeriya, Pakistan, Cənubi Afrika Respublikası, Fələstin, Türkmənistan, Venesuela, Nikaraqua, Efiopiya, Hindistan, Malayziya, Vyetnam, Qana, Küveyt, Mərakeş, Səudiyyə Ərəbistanı və digər ölkələrin prezidentləri, baş nazirləri və xarici işlər nazirləri çıxış etmişlər. Habelə, BMT-nin Baş Assambleyasının Prezidenti və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru videokonfransda çıxış etmişlər. Eləcə də, BMT-nin Baş katibi və Avropa Komissiyasının ali nümayəndəsi/vitse-prezidentinin videomüraciətləri səsləndirilmişdir.

- Təəsüflər olsun ki, qlobal əməkdaşlığa güclü ehtiyac duyulduğu bir şəraitdə dövlətlər, eləcə də bir sıra beynəlxalq və regional institutlar çaşqınlıq içərisində qalaraq beynəlxalq həmrəyliyi nümayiş etdirə bilmədilər. Hazırda qlobal liderliyə ehtiyac duyulduğu bir şəraitdə Prezident İlham Əliyev təşəbbüs irəli sürdü və "özünəqapanma sindromu"nun heç kəsə xeyir gətirməyəcəyini nümayiş etdirərək dünyanın dörd bir yanından müxtəlif siyasi və ideoloji quruluşlara malik ölkələri bir araya gətirməyə nail oldu. Bu gün biz əyani şəkildə Qoşulmama Hərəkatının fikir mübadiləsi, qlobal həmrəylik və əməkdaşlıq üçün səmərəli platformaya çevrildiyinin şahidi olduq.

- Azərbaycan Prezidentinin Zirvə görüşünün keçirilməsi ilə bağlı təşəbbüsü üzv dövlətlər tərəfindən yekdilliklə dəstəklənmiş və Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunmuşlar. 40-a yaxın ölkənin dövlət və hökumət başçılarının, Xarici İşlər nazirlərinin iştirak etdiyi sözügedən tədbir bir daha ölkəmizə və Prezidentimizə olan inamın, etibarın və etimadın göstəricisidir.

- Qoşulmama Hərəkatının sədri olan Azərbaycanın fəal surətdə çoxtərəfli diplomatiyanı və multilateralizmi təşviq etməsi dünya birliyi tərəfindən təqdir olunur. Habelə, Zirvə görüşündə bu qədər ölkənin iştirakı Azərbaycan Prezidentinin şəxsi nüfuzunun, siyasi təcrübəsi və uğurlu siyasətinin nəticəsidir. Qəbul olunmuş bəyannamədə dəyərli və vaxtında irəli sürülmüş təşəbbüsə görə Prezidentimizə təşəkkürün öz əksini tapması bunun bariz göstəricisidir.

- Təsadüfi deyil ki, BMT-nin Baş katibi çıxışı video müraciəti zamanı qeyd olunan probleme yeganə cavabın cəsarətli, uzaqgörən və birgə rəhbərlik olduğunu bildirmişdir. Eyni zamanda, o, Azərbaycan Prezidentinin belə bir görüşü çağırmasına görə təşəkkürünü bildirərək BMT-nin Prezidentimizin səylərini dəstəklədiyini xüsusilə vurğulamışdır.

- Azərbaycan bundan əvvəl də videokonfrans formatında zirvə görüşü keçirmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə aprelin 10-da Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilmişdir. Türk Şurası dünya miqyasında ilk beynəlxalq təşkilatdır ki, dövlət başçıları səviyyəsində koronavirus pandemiyasına həsr olunmuş Zirvə görüşünü keçirmişdir. Artıq Türk Şurası çərçivəsində 3 istiqamət üzrə - səhiyyə, nəqliyyat və iqtisadiyyat üzrə əməkdaşlıq mövcuddur.

- Türk Şurasının Zirvə Görüşündə çıxış zamanı cənab Prezident haqlı olaraq vurğuladı ki, "pandemiyanın ilk günlərindən etibarən bəzi ölkələr və beynəlxalq təşkilatların koronavirus qarşısında çaşqın qalmasının, özünəqapanma yolunu seçməsinin şahidi olduq". Belə bir təhlükənin hər kəsin qapısını döydüyü və multilateralizmin demək olar ki can verdiyi şəraitdə belə, Prezident İlham Əliyev nümunəvi addım ataraq pandemiyaya yalnız qlobal əməkdaşlıq və həmrəylik sayəsində qalib gəlməyin mümkünlüyünü dünyaya nümayiş etdirdi.

- Dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi Azərbaycan koronovirus təhlükəsinin ilk günlərindən etibarən qlobal həmrəylik çağırışlarına dəstək verməşdir. Azərbaycan koronavirusa qarşı qlobal mübarizəyə dəstək olaraq Ümumdünya Səhiyyə Təşkilatına könüllü maliyyə yardımı ayırmışdır. Eyni zamanda, əlavə olaraq Ümumdünya Səhiyyə Təşkilatına bir daha könüllü maliyyə töhfəsi ayrılacaqdır ki, bu dəstək zəruri ehtiyacların qarşılanması üçün koronovirusdan ən çox zərər çəkmiş Hərəkat üzvlərinə yönəldiləcəkdir. Habelə, Azərbaycan tərəfindən bir sıra ölkələrə də ikitərəfli əsasda yardım həyata keçirilmiş və keçirilməkdədir.

- Koronavirus infeksiyası hər bir dövləti ciddi sınaq qarşısında qoymuşdur. Bəzisi bu sınaqdan layiqincə çıxmaqdadır, bəzisi isə çoxsaylı insan itkisi ilə. Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus tərəfindən mart ayının 23-də Prezidentimizə ünvanladığı məktubda Azərbaycanda görülmüş işlərə yüksək qiymət verilmişdir. Azərbaycan pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişdir. Prezident İlham Əliyevin gördüyü qabaqlayıcı tədbirlər sayəsində bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Eləcə də, effektiv nəticələrə görə Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə beynəlxalq səviyyədə təqdir olunur. Azərbaycan Prezidentinin yaranmış vəziyyətin sosial-iqtisadi sferaya çətinlik yaratmaması ilə bağlı verdiyi qərarlar da Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən təqdir olunur.

- Avropa İttifaqının rəsmisinin Zirvə görüşündə iştirakı və çıxışı Qoşulmama Hərəkatının tarixində ilk dəfə baş vermiş hadisədir. Qeyd olunmalıdır ki, məhz Azərbaycan daim bir-biri ilə əks qütblərdə olan Qoşulmama Hərəkatı ilə Avropa İttifaqını koronavirus təhlükəsi zamanı bir araya gətirməyə müvəffəq olmuşdur.

- Sadalanan faktlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın dünya miqyasında nüfuzunu daim artdığının göstəricisidir.

## Vəzifə səlahiyyətlərini aşmaq cinayətdir

**Son illər, xüsusilə 2018-ci ildən Azərbaycan Respublikasının Prezidenti tərəfindən başlanmış və dövlət idarəçiliyinin bütün istiqamətlərini əhatə edən hüquqi, institusional və kadr islahatları 2019-cu ilin sonlarından etibarən daha geniş vüsət almış və hazırda bu işlər intensiv şəkildə davam etdirilməkdədir.**

Aparılan islahatların əsasını xüsusilə korrupsiya ilə mübarizənin daha da sərtləşdirilməsi və vətəndaş-məmur münasibətlərinin daha sağlam prinsiplər üzərində qurulması təşkil edir. Hər cür neqativ hallara, xüsusilə korrupsiyaya və rüşvətxorluğa son qoyulması tələbi ilə ən yüksək səviyyədə edilmiş açıq çağırışlara və xəbərdarlıqlara etinasız yanaşan, ifşa olunmuş həmkarlarının aqibətindən nəticə çıxarmayan bəzi vəzifəli şəxslər barəsində qanunvericiliyin tələblərinə uyğun olaraq cinayət-hüquqi tədbirlərin görülməsi məqsədəuyğun sayılmışdır.

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Yevlax şəhərinin və Ağstafa, Biləsuvar, Neftçala və İmişli rayonlarının icra hakimiyyəti başçıları, habelə bir sıra şəhər-qəsəbə icra nümayəndələrinin vəzifə səlahiyyətlərini aşdıqlarına, dövlət əmlakını taladıqlarına və korrupsiya hallarına yol verdiklərinə görə cinayət məsuliyyətinə cəlb olunaraq həbs edilməsi təmin olunmuşdur. Bağışlanmaz haldır ki, qeyd olunan neqativ hallara hətta mərkəzi icra aparatı orqanlarının səlahiyyətli şəxsləri də yol verirlər.

Belə ki, 8 may 2020-ci il tarixində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyində xüsusi əməliyyat həyata keçirilmişdir.

Nazirliyin yüksək vəzifəli şəxsləri, o cümlədən nazir müavini Rafiq Bayramov və Nazirlik yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov öz səlahiyyətlərindən sui istifadə edib cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə ciddi ziyan vurduqları üçün təqsirləndirilərək barələrində həbs qətimkan tədbiri görülmüşdür.

Mədəniyyətimizin keşiyində durmalı, mədəni sərvətlərimizin qorunmasını, xalqa çatdırılmasını təmin etməli olan məmurların xəyanət yolunu seçməsi həm hüquqi, həm də mənəvi baxımdan bağışlanmazdır və onlara qarşı qanunun ən sərt formada tətbiqi zəruridir.

# Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə ağac əkib

**Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.**

Dövlət başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşəparklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.











Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaqlarının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

# Cənab Prezident tərəfindən verilmiş tapşırıqlardan düzgün nəticə çıxarmayan, rüşvət və korrupsiya hallarına son qoymayan şəxslər dövlət tərəfindən ciddi cəzalandırılacaq

- Cənab Prezident tərəfindən verilmiş tapşırıqlardan düzgün nəticə çıxarmayan, rüşvət və korrupsiya hallarına son qoymayan şəxslər dövlət tərəfindən ciddi cəzalandırılması davam edir. Dövlət Təhlükəsizliyi Xidmətinin ayıq sayıqlığı nəticəsində aşkarlanmış korrupsiya halları, rüşvətxorluq, dövlət əmlakının talama səbəblərindən həbs olunmuş Ağstafa, Yevlax, Neftçala, Biləsuvar Rayon İcra Hakimiyyətlərinin keçmiş başçılarının düşdüyü vəziyyətdən nəticə çıxarmayan növbəti şəxs İmişli Rayon İcra Hakimiyyətinin başçısıdır. Bu hallar dövlətçiliyə və xalqa xəyanət kimi qiymətləndirilir.

- Bu məmurlar dünyanı bürüyən COVİD-19 pandemiyasından minimum itkilərlə çıxmasına zəmin yaradan ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyətli siyasətinə qarşı mənəviyyata sığmayan hərəkətlər etmişdirlər.

- Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən dəfələrlə ictimaiyyət qarşısında vəzifəli şəxslərə, xüsusilə icra başçılarına müvafiq tapşırıqların verilməsinə baxmayaraq bu halların baş verməsi dövlətin mənafeyinə ciddi zərbə vurur.

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Baş Prokuroru vəzifəsinə Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisinin təyin edilməsi Azərbaycanda korrupsiyaya qarşı aparılan ciddi mübarizənin təzahürüdür. Aparılan ictimai-siyasi, iqtisadi, hüquqi və kadr islahatların ölkəmizin yeni inkişaf mərhələsinə keçidini şərtləndirir.

# Qobustan Rayon İcra Hakimiyyətinin başçısı ərazi icra nümayəndələri ilə video-müşavirə keçirib







***04.05.2020-ci il tarixində rayon icra hakimiyyəti başçısı aparatının inzibati ərazi dairələri üzrə nümayəndələrinin iştirak ilə video-müşavirə keçirilib.***

Müşavirədə ölkədəki xüsusi karantin rejimi, yumuşaltma tədbirləri və sosial izoliasiya işləri müzakirə olunub. Bildirilib ki, prezident cənab İlham Əliyev tərəfindən vəzifəli şəxslərin qarşısında tələb qoyulub ki, koronovirus infeksiyasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər yerlərdə davam etdirilməli, ölkədə tətbiq olunacaq yumşaltma tədbirlərinə baxmayaraq kütləvi toplaşmaların, xüsusilə də mərasimlərin kütləvi keçirilməsinin qarşısı alınmalı, sosial izoliasiya tələblərinə əməl edilməlidir.

Dövlət tərəfindən aparılan işlər, aztəminatlı ailələrə yönəlmiş sosail siyasətdən danışılan müşavirədə, yardım və müavinətlərin davam etdiriləcəyi bildirilib. Eyni zamanda qeyd edilib ki, bu sosial addımlardan öz maraqları üçün sui-istifadə halları yolverilməzdir və belə şəxslərə qarşı qanunamüvafiq qaydada ən sərt tədbirlər görüləcəkdir.

# Qobustan rayonunda Ərəbqədim-Göydərə avtomobil yolu yenidən qurulur



**Qobustan rayonunun Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işləri yüksək keyfiyyətlə və sürətlə davam etdirilir.**

Başlanğıcını Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 88-ci km-dən götürən Ərəbqədim-Göydərə yolu 4-cü texniki dərəcəlidir.

Torpaq əsaslı və çınqıl örtüklü yolun eni və uzunu tikinti norma və standartlara uyğun deyildi. Bu üzdən torpaq işlərinin yerinə yetirilməsi tələb olunurdu. Bundan başqa texnoloji ardıcıllıqla bütün yolda yeni yol geyiminin tikilməsi zərurəti yaranmışdır. Bu səbəbdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi yolun yenidən qurulması işlərinə start verib.

Yolun ümumi uzunluğu 13 km-dir. Yenidənqurma işləri çərçivəsində sözügedən yol boyu torpaq yatağının yararsız qruntu qazılaraq çıxarılıb, əvəzinə yararlı material tökülərək kipləşdirilib. Layihə çərçivəsində yolun normativ eninin alınması üçün çınqıl materialı ilə yolun eninin 6-7 metrdən 10 metrə genişləndirilməsi və profilə salınması işləri aparılıb. Tikintinin aparıldığı ərazi 130 min kv.m-dən çoxdur.

Texnoloji ardıcıllığa uyğun olaraq bu işlərin ardınca hazırda yol əsasın alt və üst layının nəzərdə tutulmuş qalınlıqda tikintisi aparılır. Daha sonra əlaqələndirici bitum səpilməklə iri və xırda dənəli olmaqla 2 laydan ibarət və 12 sm qalınlığında asfalt-beton örtüyünün döşənməsi işləri aparılacaq. Yolun hərəkət hissəsinin eni 6 metr nəzərə alınmaqla bu işlər 78 min kv.m sahəni əhatə edəcək.



Layihə çərçivəsində çiyinlərin optimal çınqıl-qum qarışığından 12 sm qalınlığında bərkidilməsi, həmçinin giriş-çıxış yollarının təmiri işləri aparılacaq. Yol boyu yeni suötürücü dəmir-beton boruların quraşdırılmasına ehtiyac olduğu üçün, müxtəlif diametrlərə malik 6 ədəd yeni dairəvi suötürücü borunun quraşdırılması, həmçinin 1 dördbucaqlı su keçidinin inşası da nəzərdə tutulub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında və yüksək keyfiyyətlə aparılan tikinti işlərindən sonra layihəyə uyğun olaraq, zəruri yerlərdə avtonəqliyyat vasitələrinin hərəkətin təhlükəsizliyinin təmin edilməsi və sürücülərin düzgün istiqamətləndirilməsi məqsədi ilə yol nişanları, məlumatverici lövhələr, km göstəriciləri və siqnal dirəkləri quraşdırılacaq, yolcizgi və yolgöstərici xətlər çəkiləcək.

Ərəbqədim-Göydərə sakinlərin rahat gediş-gəlişini təmin edəcək, həmçinin Bakı-şamaxı-Yevlax avtomobil yolu vasitəsilə respublikamızın istənilən istiqamətinə hərəkət etməyə imkan verəcək. Avtomobil yolu 2 mindən artıq əhainin yaşadığı 2 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılması ilə yanaşı, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında da mühüm rol oynayacaq.

Regionların inkişafı Dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər kənd yollarının yenidən qurulmasını da geniş əhatə edir. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə uyğun olaraq kənd və qəsəbələri birləşdirən, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmiri və yenidən qurulması işləri həyata keçirilir. Başlanğıcını Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 88-ci km-dən götürən Ərəbqədim-Göydərə yolunun yenidən qurulması da yol infrastrukturunun inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin tərkib hissəsidir.





# COVID-19 pandemiyası ilə bağlı yardımlar davam etməkdədir









## Maska taxmamağa görə cərimə tətbiq olunacaq

İnzibati Xətalar Məcəlləsinə təklif edlən dəyişikliyə əsasən, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50 manat məbləğində, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər 200 manat məbləğində cərimə ediləcək. Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnəcək.

# Kölgədən işığa doğru

## Dövlət-vətəndaş həmrəyliyinə töhfə: kölgədən işığa doğru

***Son illər ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunması işləri ilə paralel olaraq, iqtisadi fəaliyyətin və gəlirlərin tam şəffaflaşdırılması istiqamətində ardıcıl olaraq islahatlar həyata keçirilmişdir. Bu islahatlar "kölgə" iqtisadiyyatının miqyasının əhəmiyyətli dərəcədə kiçilməsinə və rəqabət mühitinin daha da yaxşılaşmasına mühüm əsaslar yaratmışdır.***

Dövlət tərəfindən təkmil nəzarət və təşviqyönümlü mexanizmlərin geniş tətbiqi nəticəsində iqtisadi fəaliyyət sahələrində şəffaflığın ciddi şəkildə artmasına nail olunmuşdur. Bununla da dövlət-biznes münasibətləri daha sağlam əsaslar üzərində qurulmuş, bütün sahələrdə maliyyə intizamı yaxşılaşmışdır.

Statistik məlumatlara görə, 2020-ci ilin I rübündə dövlət büdcəsinə qeyri-neft sektoru üzrə daxilolmalar 21.3% artaraq 1.4 mlrd. manatı üstələmişdir.

Buna paralel olaraq əmək haqqı fondu da ağarmışdır. 2019-cu ildə əmək müqavilələrinin sayı 153 min artmış, o cümlədən bu artımın 99 mini özəl sektorun payına düşmüşdür. Ümumilikdə son 5 rüb, yəni 2019-cu il və cari ilin birinci rübü ərzində əmək müqavilələrinin sayı 172 mindən çox artmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Nazirlər Kabinetinin təsdiq etdiyi və pandemiyanın iqtisadiyyata, sosial rifaha və məşğulluğa mənfi təsirlərinin azaldılmasına xidmət edən Tədbirlər Planının mühüm bir istiqaməti də iş yerlərinin və işçilərin əməkhaqlarının qorunması, əhalinin məşğulluq imkanlarının artırılmasına yönəlib.

Pandemiya dövründə dövlət və özəl sektorda işçilərin əsassız yerə işdən çıxarılmaması, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əməkhaqlarının saxlanması istiqamətində məqsədyönlü işlər aparıldı. Nəticədə mövcud iş yerləri nəinki qorundu, həmçinin "Əmək müqaviləsi bildirişi" altsistemindən mayın 1-də əldə olunan məlumata əsasən, 2020-ci ilin əvvəlindən əmək müqavilələrinin sayında 105 min nəfərlik (o cümlədən özəl sektorda 94 minə yaxın) artım oldu.

Beləliklə pandemiya dövründə muzdla işləyən 1 milyon 660 min şəxsin məşğulluğu təmin edildi və onlar işsizlik riskindən qorundu.

Şəffaf fəaliyyət iş yerlərinin qorunmasını və dövlətin bütün güzəştlərinə tam çıxış imkanlarını təmin etdi. Dövlət tərəfindən iqtisadi sahələrə və əhaliyə nəzərdə tutulan güzəştlər təbii olaraq öz dövriyyəsini ağartmış subyektləri əhatə edir. Koronavirus pandemiyası dövründə hazırlanan Tədbirlər planı buna mühüm nümunə ola bilər. Tədbirlər planında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə zərər çəkən sahələrdə iqtisadi aktivliyin dəstəklənməsinə 900 mln.manat birbaşa kompensasiya ödənişi ayrılmışdır.

Bu çərçivədə muzdlu işçilərin iş yerləri qorunmuş, zərər çəkən sahibkarlara maliyyə dəstəyi göstərilmiş, onlara geniş vergi güzəştləri verilmiş, fəaliyyət sahələrinə ayrılan 1.5 mlrd.manat bank kreditlərinə dövlət zəmanəti verilmiş və faizləri subsidiya edilmişdir.

Qeyri-formal fəaliyyət göstərənlər isə dövlətin yaratdığı imkanlardan bir çox hallarda məhrum oldu. Belə "işgüzar cəmiyyət" uzun müddət "kölgə"də olmaqla dövlət ilə əməkdaşlıq imkanlarını itirdi və nəticədə dövlət-biznes münasibətlərindən kənarda qaldı. Bu səbəbdən dövlət bütün güzəşt və stimullaşdırıcı tədbirlərini yalnız dövlətlə əməkdaşlıq edən sahibkar və vətəndaşa şamil edə bildi.

Əlavə olaraq iqtisadiyyata mənfi təsirlər zamanı öz fəaliyyətində dürüst olan intizamlı sahibkarı və vətəndaşı qorumaq dövlət üçün daha asan oldu. Qeyri-şəffaf fəaliyyətdə olanlar isə dövlətin geniş maliyyə dəstəyinin daha böyük hissəsindən kənarda qalır.

Bununla yanaşı, dövlətimiz hətta qeyri-formal məşğulluq sahəsində fəaliyyət göstərən və "kölgə"də olan vətəndaşlarına belə ən çətin dövrlərdə sosial dövlət mövqeyindən çıxış edərək öz dəstəyini göstərir.

Pandemiya ilə əlaqədar tətbiq edilən xüsusi rejimli karantin dövründə qeyri-formal məşğul vətəndaşlar təbii olaraq şəffaf olmayan gəlir mənbəyini itirmiş oldular. Belə bir vəziyyət dövləti əslində çətin seçim qarşısında qoydu. Lakin ölkə başçısının humanizmi, Azərbaycan vətəndaşına diqqət və qayğısı nəticəsində hətta əvvəllər qeyri-formal sektorda çalışanların sosial müdafiəsinin də nəzərə alınması təmin edildi.

Aprelin 17-də Prezident cənab İlham Əliyev keçirdiyi videobağlantı formatında iclasda 600 min insana iki ay ərzində hər ay 190 manat birdəfəlik vəsait verilməsini tapşırdı. "Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini müvəqqəti itirən və qeyri-formal məşğul insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür" deyə vurğulayan cənab Prezident bir daha dedi: "Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar da dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin".

Beləliklə, pandemiya dövründə işsiz kimi qeydiyyata alınan 600 min vətəndaşa iki ay müddətində yaşayış minimumu həcmində (190 manat) birdəfəlik müavinətin verilməsi nəzərdə tutuldu. Halbuki, şəffaf fəaliyyət göstərməklə dövlətin bütün maliyyə yardımından faydalanmaq və daha çox sosial yardım əldə etmək olardı.

Belə ki, əmək qabiliyyətli ailə üzvünün formal sektorda işləməsi tələbi əsas şərtlərdən olan ünvanlı dövlət sosial yardım proqramının əhatə dairəsi pandemiya dövründə genişlənmiş, təkcə aprel ayında əlavə 12 min ailə (50 min ailə üzvü) də bu proqrama cəlb edilmiş və hazırda 82 mindən çox ailənin 342 min üzvü ünvanlı dövlət sosial yardımı ilə təmin edilir.

Digər tərəfdən, pensiya, müavinət və təqaüd alan 2 milyon şəxsə ödənişlərin davamlılığı təmin edildi. Sosial ödənişlər formal sektorda işləyən şəxslər üçün sosial dayaq və sosial müdafiə rolunda çıxış edir. Qeyri-formal sektorda çalışanlar isə qeyd olunan ödənişlərdən kənarda qalır.

Koronavirus dövrünün "acı nəticələri"ni nəzərə alaraq hər bir sahibkar və vətəndaş şəffaf fəaliyyət göstərməlidir. Dövlətin biznesdən və əhalidən gözləntisi - fəaliyyətin tam şəffaflaşdırılmasıdır.

Şəffaflıq sahibkarın və vətəndaşın gələcəkdə baş verə bilən bütün gözlənilməz təsirlərə hazırlıqlı olmasını təmin edir. Bu üstünlüyü görməyi bacaranlar dövlət başçısı ilə həmrəylik nümayiş etdirdi.

Koronavirus təcrübəsi belə bir həmrəyliyin olduqca vacib olduğunu bir daha təsdiq etdi.

Ölkə başçısının qeyd etdiyi kimi, "burada təkcə dövlət orqanlarının fəaliyyəti kifayət deyil. Biznes dairələri də öz məsuliyyətini dərk etməli və əyri yola getməməli, öz fəaliyyətini kölgədən çıxarmalıdırlar...". Əks halda, əmək müqaviləsinin və şəffaf fəaliyyətin olmaması koronavirus dövründə olduğu kimi, vətəndaş üçün yeni həyat dərsinə çevriləcək.

Bunu nəzərə alaraq iqtisadi fəaliyyətdə məsuliyyət və nizam-intizama üstünlük verilməli, bu birlik post-koronavirus dövründə də davam etdirilməlidir.

# II Dünya Müharibəsi iştirakçılarına 1500 manat birdəfəlik yardım verilir







***II Dünya Müharibəsi iştirakçılarına 1500 manat birdəfəlik yardım verilir.***

Prezident İlham Əliyevin 24 aprel 2020-ci il tarixli sərəncamının icrası olaraq, İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin müharibənin iştirakçılarının - 256 nəfərin hər birinə 1 500 manat məbləğində birdəfəlik maddi yardımın maliyyələşdirilməsi artıq təmin olunub. Qobustan rayon sakinləri Qasımov Bulut Qara oğlu və Şahaliyev Məhəmməd Məhəmməd oğlu cənab Prezidentimizin sərəncamı ilə verilən həmin birdəfəlik maddi yardım alan müharibə iştirakçıları Dövlət rəhbərinə öz təşəkkürlərini bildirdilər.





Xatırladaq ki, İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği mütəmadi artırılır.

Bu istiqamətdə növbəti artım kimi, ötən ilki illə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik yardımın məbləği də 50 faiz artırılıb.

Qobustan rayon İcra hakimiyyətinin başçısı Adil Məmmədov 2 Böyük Vətən Müharibəsi veteranına, 9 nəfər də arxa cəbhədə medalla təltif edilmiş müharibə iştirakçılarına qiymətli hədiyələr və fəxri fərman verdi.

# "PAŞA Holding"in dəstəyi ilə Qobustan rayonunun Xilmili kəndində futbol və basketbol meydançaları tikilib







**”PAŞA Holding”bu tədbiri həyata keçirməkdə əsas məqsədi ölkənin müxtəlif bölgələrində müvafiq idman şəraitinin yaradılmasını dəstəkləmək, həmçinin yaranmış vəziyyətdə ölkənin idman və səhiyyə istiqamətlərinin inkişafına töhfə verməkdir.**

Sözügedən idman meydançasının açılış mərasimində Qobustan rayonunun icra başçısı Adil Məmmədov iştirak edib. ”PAŞA Holding”in Baş İcraçı Direktoru Cəlal Qasımovun dediyinə görə, ”İdman daim həm ”PAŞA Holding”in, həm də Qrupumuza daxil olan digər şirkətlərin Korporativ Sosial Məsuliyyət siyasətinin əsas istiqamətlərindən biri olub”.





Xatırladaq ki, COVİD-19 pandemiyası dövründə ”PAŞA Holding” tərəfindən koronavirusla mübarizə üçün laboratoriyanın yaradılması, Heydər Əliyev Fondu və Regional İnkişaf İctimai Birliyi tərəfindən həyata keçirilən ”Biz birlikdə güclüyük” layihəsinə dəstəyin göstərilməsi və Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi ilə birgə fermerlərə mikrokreditlərin təqdim edilməsi kimi sosial məsuliyyət yönümlü fəaliyyətlər də həyata keçirilib.

## *Qobustanın həyat günəşi*

*Möhtərəm İcra başçısı*
*Adil Məmmədov cənablarına*

Qobustan elində çiçəklər açdı,
Elimiz, obamız abadlaşdı,
Yollar işıqlandı, sular çağladı,
Qobustan elində bir işıq saçdı.
****
Sənin həyat günəşin Qobustan oldu,
"Adil müəllim" sözü dillərdə dastan oldu,
Bizə verdiyin tövhə "Gülüstan " oldu
Qobustan elinə bir işıq saçdı.
****
Qobustana həsr etdin həyatını, ömrünü,
Bu eldə yaşlanıb, ixtiyar oldun.
Qəlblərdə yaşayıb, bəxtiyar oldun,
Qobustan elinə bir işıq saçdı.
****
Sənin bu varlığın bir dayaq oldu,
Yayıldı ellərə, bir soraq oldu
Gecəli-gündüzlü, bir çıraq oldu,
Qobustan elinə bir işıq saçdı.
****
Bir atasan Qobustana
Şöhrətin yayılıb hər yana
Allah səni çox görməsin
Bizim cavan Qobustana.

***İzzət Bəxtiyarqızı***

*Təşəkkür məktubu*

## Qobustan rayon İcra Hakimiyyətinin Başçısı cənab Adil Məmmədova

Hörmətli Adil müəllim, son illər ölkə Prezidenti cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti sayəsində Azərbaycan dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer tutur. Bu gün Azərbaycan regionunən güclü dövlətidir. Ölkəmizdə aparılan iqtisadi islahatlar, ordu quruculuğu sahəsində görülən işlər xalq tərəfindən bəyənilir və dəstəklənir. Xalqımız inanır ki, son aylar dünyanı bürümüş COVİD-19 pandemiyasının ölkəmizdə yayılmasının qarşısını almaq üçün Möhtərəm Prezidentimizin uzaqgörən və qabaqlayıcı tədbirləri sayəsində bu bəladan az itki ilə çıxacağıq. Xalq bu çətin günlərdə xəstəliklə mübarizə üçün lazımı tədbirlər görən, ehtiyacı olan hər kəsə diqqət və qayğı göstərən Möhtərəm Prezidentimizin ətrafında daha sıx birləşib.

Hörmətli Adil müəllim, ölkəmizdəki bu inkişaf bizim rayonda da aydın görünür. Etiraf etmək lazımdır ki, siz bizim rayona rəhbər təyin edildikdən sonra rayonumuzun həyatında bütün sahələrdə sürətli inkişaf başladı. Bu inkişafı nəinki yerli əhali, həm də rayonumuzun qonaqları da qeyd edirlər. Böyük sahələrdə uzun müddətdən sonra görülmüş və ya qismən görülmüş bekə işlərin az bir hissəsini qeyd etmək bu işlərin möhtəşəm olmasını göstərər. İllərlə susuz qalmış rayon mərkəzinin müntəzəm su ilə təmin edlməsi, kanalizasiya sistemi qurulması, müasir tələblərə cavab verən məktəblərin, xalçaçılıq sexinin, yun boyama sexinin tikilib istifadəyə verilməsi, onlarla kilometr asfalt yolun çəkilməsi və qeyd etmədiyim çoxlu sayda başqa işlər hər birimizi sevindirir. Bu günlər rayonun daxili imkanları hesabına imkansız insanlara yardım göztərilməsini hamımız görur və bu işdə əməyi keçən hər kəsə minnətdarlıq edirik. Bütün bunlar Möhtərəm Prezident cənab İlham Əliyevin ölkə sahəsinə göstərdiyi qayğının bariz nümunəsidir. Hörmətli adil müəllim, bütün bu işlərin görülməsində sizin əməyinizi qeyd etməmək ədalətsizlik olardı. Bu qədər çox aııyyə vəsaiti tələb edən işlərin görülməsinin bir səbəbi dövlətimizin vətəndaşlara olan qayğısıdırsa, bir səbəbi də sizin şəxsi nüfuzunuzdur. Ən başlıcası isə ölkə rəhbərinin sizin qarşınıza qoyduğu tələblərə məsuliyyətlə və vicdanla yanaşmağınızdır. Siz rayonda olan problemləri görür, onları araşdırır, təhlil edir və həlli üçün yollar arayırsınız. Bu məsələ daxili imkanlar hesabına həll olunmazsa müvafiq təşkilatlar qarşısında məsələ qaldırırsınız. Məsələnin həllinə nail olmada Sizə şəxsi nüfuzunuz, peşəkarlığınız, işə məsuliyyətlə yanaşma, vicdanlı münasibət və insanlara olan sevgi kömək edir.

Hörmətli Adil müəllim, rayonumuzda aparılan bu quruculuq işlərindən yaşadığım Nabur kəndi də kənarda qalmayıb. Sizin hər dəfə kənd əhalisi ilə görüşünüz sevincimizə səbəb olur. Belə ki, bu görüşlərdə kəndin problemləri ilə tanış, həmçinin ayrı-ayrı vətəndaşların arzu və təkliflərini dinləyib üvafiq tədbirlər görürsünüz. Belə görüşlərin birində kənddə internet şəbəkəsinin olmaması haqqında Sizə məlumat verildi. Siz elə ordaca bu məsələnin həlli üçün müvafiq təşkilat nümayəndəsinə lazımı tapşırıq verdiniz. Qısa vaxt ərzində kəndimizdə internet məsələsi həll edildi. Uzun illər idi ki, kəndimizdə içməli su problemi həll olunmurdu. Bir qrup kənd sakininin bu məsələ ilə əlaqədar Sizə olan müraciəti də qısa vaxtda müsbət həll edildi. Rayon su idarəsinin köməkliyi ilə yeni su xətləri çəkildi, köhnə su boruları yeniləri ilə əvəz edildi.Sizin tapşırığınızla kəndin girəcəyində şəhidlərə xatirə olaraq gözəl bir bulaq da tikildi. Kəndli gənclərin futbol meydançasının qurulması üçün Sizə etdikləri müraciət də öz müsbət həllini tapdı. Hazırda kəndimizdə gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün futbol meydançası da var.

Həmçinin kənd sakinləri Sizdən kəndə gələn asfalt yolun yenidən çəkilməsi və müasir tələblərə cavab verən məktəb binasının tikilməsi məsələsini xahiş etdilər. Siz bu məsələlərin həll üçün lazımı işlər görüləcəyini bildirdiniz. Bu günlərdə aldığımız şad xəbər bütün kənd sakinlərini, xüsusilədə məktəbliləri sevindirdi. Məlum oldu ki, yaxın günlərdə asfalt yolun çəkilməsinə və yeni məktəb binasının tikilməsinə başlanacaq. Bütün bunlara görə ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarına və sizə kənd sakinləri adından minnətdarlığımızı bildirirəm. Hörmətli Adil müəllim, bu günlərdə pandemiya səbəbindən yaranmış çətinliklə əlaqədar imkansız insanlara göstərdiyiniz yardımlar bir daha göstərdi ki, dövlət hər zaman vətəndaşının yanındadır. Siz həmçinin evi olmayan xəstə, imkansız ailələr üçün yaşayış evi tikmisiniz və yenə də tikirsiniz. Bütün bunlara görə sizə təşəkkür edirik.

Hörmətli Adil müəllim , bütün bu gözəl işlərə görə sizə minnətdarlığımı bildirir, sizə uzun ömür, can sağlığı və işlərinizdə daha böyük uğurlar arzulayıram. Mübarək Ramazan günləri xatirinə Uca Allah xalqımızı və dövlətimizi qorusun.

***Hörmətlə, Böyük Qurtuluş Partiyası***
***Qobustan rayon şöbəsinin sədri***
***Əlhüseynov Əlfalı Soltu oğlu***

# Qobustan rayonunda əkin sahələrində alaq otlarına qarşı mübarizə davam edir

Alaq becərilən bitkilər arasında öz başına bitən bitkidir. Dünyada alaqların bir neçə minə qədər, o cümlədən, yonca sahəsində müvafiq olaraq 120 və 125, payızlıq taxıl zəmilərində 152, tərəvəz əkinlərində 25, üzüm bağlarında 148 növ alaq bitir. Alaq bitkiləri həm yabanı, həm də becərilən bitkilərə ayrılır. Alaq otları mal-qaranın yemləndirilməsi baxımından mədəni bitkilər kimi kənd təsərrüfatının məhsulu hesab olunur.Alaqlar kənd təsərrüfatı bitkilərinin qidasına şərik olaraq onların məhsuldarlığına və keyfiyyətinə ciddi ziyan vurur. Alaq otlarının mədəni bitkilərə nisbətən, torpağın dərin qatına işləyən güclü kök sistemi var. Buna görə onlar torpaqda olan su ehtiyatından daha çox yararlanaraq, öz inkişafına görə həmişə mədəni bitkiləri qabaqlayır. Alaqlar sahədə sıxlıq yaratmaqla mədəni bitkiləri kölgələndirib, günəş işığından məhrum edir, onların boyca kiçik qalmasına, yatmasına və nəticə etibarilə zəifləməsinə, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Taxıl bitkiləri üzərində yayılmış turpəng, (yabanı turp,sarıçiçək) qanqal, kəkrə, sarmaşıq kimi alaqlar buna misal ola bilər.

Bəzi zəhərli alaqlar - qaymaqçiçəyi, dəmirotu, dağsarmaşığı, sahə bozalağı kənd təsərrüfatı heyvanlarının süd və süd məhsullarının keyfiyyətinə də mənfi təsir göstərir. Bəzən də onlarda müxtəlif xəstəliklər törədir. Alaq otları həm də çox güclü vegetativ kütlə vermək hesabına mədəni bitkiləri işıqdan məhrum edərək onlarda assimilyasiya prosesini zəifledir. Nəticədə, bitkilərdə qida maddələri az toplandığından cücərtilər saralır, boyu uca olur, gövdəsi nazikləşib yerə yatır və ya sınır. Əkin sahələrində bitən yabanı otların dünyada yetişdirilən bütün bitki məhsullarına 10-15 faiz nisbətində zərər verdiyi məlumdur. Alaq otları torpağın hərarətini 3 dərəcə aşağı salır, torpaqda faydalı mikroorqanizmlərin həyat fəaliyyətini zəiflədir və nəticədə, mədəni bitkilər daha gec yetişir, məhsuldarlıq aşağı düşür. Hündür gövdəli alaq bitkiləri kənd təsərrüfatı maşınlarının iş şəraitini çətinləşdirir. Alaq toxumlarının ərzaq taxılına qarışması ona tünd rəng verir, çörəyin dadını korlayır və çox vaxt unu istifadə üçün yararsız edir. Bir çox alaq bitkiləri zərərverici və xəstəlik törədicilərinin çoxalması üçün əlverişli yerdir. Alaq bitkiləri heyvanların yeminə



düşdükdə südün və süd məhsullarının keyfiyyətini korlayır, ətə xoşa gəlməyən dad verir.

***Çoxalıb yayılması***

Alaqların əksəriyyəti toxum vasitəsi ilə çoxalır və küllü miqdarda toxum verir. Alaq toxumlarının cücərmə qabiliyyəti torpağa düşdüyü dərinlikdən çox asılıdır.Taxıl biçildikdən və sahə bitki qalıqlarından təmizləndikdən dərhal sonra 8-10 santimetr dərinlikdə üzləmə aparılmalıdır. Bu zaman torpağın üst qatındakı alaq toxumlarının cücərməsi üçün şəhəni ya suvarmalı, ya da yağış yağmasını gözləməli və alaqların kütləvi cücərməsindən sonra dərin şum aparılmalıdır. Əks təqdirdə biçindən sonra birbaşa dərin şumlama aparılarsa, hər il dərindəki toxumların bir hissəsi üzə çıxıb yenidən cücərir və uzun müddət onların kökünü kəsmək mümkün olmur.Becərilən kənd təsərrüfatı bitkiləri əkinlərində bir çox alaq növləri mövcuddur. Ən geniş yayılanlar və məhsuldarlığa ciddi ziyan vuranlar turpəng (sarıçiçək), yabanı vələmir, çöl noxudu gülü və kalışdır. Bunlar taxıl əkinləri üçün hakim alaqlar hesab olunur. Mədəni bitkilərə nisbətən çox sürətlə boy atıb, onları kölgələyir. Bunlarla yanaşı, dəmyə əkin sahələrində çayır, qanqalın müxtəlif növləri-göy qıllıca, yaşıl qıllıca, toyuqdarısı da yayılır. Ona görə də alaq otlarına qarşı mübarizə tədbirlərinin aparılmasını vacib sayıb, bu barədə fermerlərə məsləhət verməyi məqsədəuyğun hesab etdik.

***Yovşan yarpaqlı ambroziya***

Birillik iki ləpəli alaq otlarının astrakimilər



fəsiləsinə aiddir. Yovşan yarpaqlı ambroziya xarici görünüşcə adi yovşana oxşadığı üçün yovşan yarpaqlı adı verilmişdir.Geniş yayıldığı ərazilərdə ambroziya kənd təsərrüfatı bitkilərinin və otlaqların məhsuldarlığını azaltmaqla yanaşı, insanların sağlamlığına da təsir edir. Ən çox dəmiryolu və torpaq yolları ətrafında, çay kənarlarında, xam torpaqlarda geniş yayılmışdır. Ambroziya bir vahid quru maddə əmələ gətirməsi üçün torpaqdan 15,5 kiloqram azot, 1,5 kiloqram fosfor və 950 litr su istifadə edir. Taxıl bitkilərinə nisbətən daha çox kalium, kalsium, maqnezium və sair mikroelementlər mənimsəyir. Şumlanmış sahələrdə torpağın üst qatına yaxın olan toxumlar yazda cücərir, qatlardakılar isə ikinci bioloji sükunət vəziyyətinə keçir. Əlverişli şəraitdə bütün vegetasiya müddətində ambroziyanın cücərtilərinə rast gəlinir. Cücərtilər nə qədər gec əmələ gələrsə, onlar toxum əmələ gətirə bilmək üçün bütün inkişaf fazalarını daha tez keçir.Yerli şəraitdə cücərtilər əsasən, aprel ayında əmələ gəlir. Ambroziyanın yarpaqlarının tərkibində acı efir yağı olduğu üçün heyvanlar ondan yem kimi istifadə edə bilmirlər. Bu alaq otu ilə qidalanmış heyvanın südü və süd məhsulu acı dad verməklə, eyni zamanda xoşa gəlməyən iy verir. Kütləvi çiçəkləmə zamanı ambroziyanın çiçək tozu insan sağlamlığı üçün çox qorxuludur. Belə ki, çiçək tozcuğu insanda qızdırma, astma və sair xəstəliklərin əmələ gəlməsinə səbəb olur. Xəstənin tənəffüs yollarının və gözünün selikli pərdələri şişir, tənəffüs alması çətinləşir, görmə qabiliyyəti zəifləyir, iş qabiliyyəti itir.

***Tikanlı quşüzümü***

Quşüzümü fəsiləsinə aiddir. Bu bitki kənd təsərrüfatı bitkilərinin və otlaqlarının məhsuldarlığını azaldır, məhsulu zibilləyir və keyfiyyətini aşağı salır, mədəni bitkilərin zərərverici və xəstəliklərinin çoxalmasına şərait yaradır. Alaq otunun uzun və şaxələnmiş kök sistemi mədəni bitkilərlə rəqib olmasına şərait yaradır.

***Yabanı turp***

Hündürlüyü 80-90 santimetr olan şaxəli gövdə əmələ gətirir. Buynuz meyvədə yetişən toxumları ilə çoxalır. Bir bitki 12 minə qədər toxum verir, bunlar hissələrə bölünmüş buynuzmeyvə ilə birlikdə həm torpağı, həm də məhsulu zibilləyir. 5-10 il cücərmə qabiliyyətini saxlayır. Toxumları taxıl dəni ilə bir boyda olur və ondan yalnız diqqətlə təmizlənəndə ayrılır. Yabanı turp əsasən qara torpaq olmayan zonada yayılmışdır.Erkən yazda açıq-sarı çiçəklər açır, taxıl bitkisinin vegetasiya dövrü toxumlayır və torpağı zibilləyir. Taxılın vegetasiyasının sonuna qədər onunla birlikdə inkişaf edir, toxumlarını əsasən taxılın yetişməsi dövründə, bəzən də biçin dövrü və biçindən sonra torpağa t

***Kimyəvi mübarizə tədbirləri***

Payızlıq taxıl əkinlərində alaq toxumları əkin sahələrində olduğu üçün mədəni bitkilərin yazda inkişafa başladığı zaman onların da cücərməsi başlayır və mədəni bitkilərdən daha çox sürətlə inkişaf edir. Bitkiləri alaqlardan təmizləməyin ən yaxşı yolu kimyəvi mübarizə tədbirləridir. Belə ki, amin duzları herbisidlərindən hər hektara 1,5-2,5 litr norma ilə 300-400 litr suya qatılaraq tətbiq edilir. Bu alaqları taxıl sahələrindən təmizləmək üçün 2,4 D amin duzu, hektofermin, çönül, alyans və sair herbisidlərin birindən istifadə edilir.

Qobustan rayonu aqrar rayon olduğu üçün 30000 ha -dan artıq sahədə əkin işləri aparılmışdır. Mövsüm ilə əlaqədar əkilmiş sahələrə gübrələr verilməsi səbəbindən alaq otları da əkin sahələrində bitmişdir. Bu səsbdən əkin sahələri bu alaq otlarından təmizləmək məqsədi ilə aqrotexniki qaydalarla dərmanlama işləri həyata keçirilir.

***Redaktor***

Unudulmayanlar

# Yusif Yusifovun ömür dünyası







***Yusif İsifalı oğlu Yusifov 1941-ci ildə Şamaxı rayonunun Cəmcəmli kəndində dünyaya göz açıb. Kənddəki yediillik məktəbi bitirdikdən sonra sənədlərini Salyandakı kənd təsərrüfatı texnikumuna verir və qəbul olur.***

Burada aqronom ixtisasına yiyələnir. Əvvvəlcə Şamaxı rayonunun təsərrüfatlarında öz ixtisası üzrə , sonra isə doğma kənddəki sovxozda rəhbər vəzifələrdə çalışır. Təsərrüfatda çalışmaqla Rusiyanın Pskov şəhərində təhsilini qiyabi davam etdirir. O, bir sıra yazıları ilə mətbuatda tanınmağa başlayır. Qələmini "Yeni Şirvan" rayon qəzetində sınayan Yusif Yusifov "Sovet kəndi", "Kommunist" qəzetlərində və "Təşviqatçı", "Kənd həyatı" və s. kimi jurnallarda öz yazıları ilə çıxış edir. Məhz vaxtında "Sovet kəndi" qəzetinin 50 illiyi ilə əlaqədar Azərbaycan Ali Sovetinin Fəxri Fərmanına layiq görülür.

Y. Yusifov üzünü belə görmədiyi atasını Böyük Vətən müharibəsində itirir. Ata niskili və vətənə olan məhəbbət daima bu insanı rahat buraxmır. Bilirik ki, İkinci Dünya müharibəsi bəşər tarixinə ən qanlı , ən dağıdıcı müharibə kimi daxil oldu. Bu müharibə xalqımıza da bəlalar gətirdi. Qobustan rayonunun Cəmcəmli kəndindən də igid oğullar könüllü olaraq cəbhəyə yola düşdülər. Müharibəyə gedən 112 nəfərdən 56-sı geri dönmədi. Məhz Y. Yusifov qələmini bu yönəmə tuşladı. "Cəmcəmli kəndinin igid oğulları" adlı ilk kitabı Respublika Xatirə Kitabı Nəşriyyatı tərəfindən nəşr edilərək 2000-ci ildə oxucuların ixtiyarına verildi. Kitab Böyük Vətən müharibəsində və Qarabağ torpağında həlak olmuş və itkin düşən həmyerlilərimizə həsr olunmuşdur. Kitabın əvvəlində verilmiş S. Vurğunun aşağıdakı misalları insana təskinlik və qüvvət verir:

**Alqış**
**Vətən torpağını**
**candan**
**Əziz bilənlərə!**
**Alqış olsun**
**həyat üçün**
**döyüşlərdə**
**ölənlərə!**

Onun "İkinci ömür yaşayanlar" kitabı 2002-ci ildə nəçr olunur. Bu kitabda Böyük Vətən müharibəsindən sağ- salamat qayıdan sakinlərdən bəhs olunur:

***Cəmcəmlilər - əmim, dayım***
***Xoşbəxt ilim, günüm, ayım***
***İgidlər arxam, harayım,***
***Ön cəbhədə vuruşdular,***
***Qələbədə payları var.***

Artıq onun kitabları bir qəhrəmanlıq salnaməsinə çevrilirdi. Belə ki, "Biz sizdən öyrəndik qəhrəmanlığı" kitabı da oxucularını sevindirdi. Kitabda xalq qəhrəmanları Cavanşir, Babək, Koroğlu, Qaçaq Nəbi bir örnək kimi göstərilir. Məhz Qarabağ torpağında igidliklə döyüşmüş və ağır vuruşların birində həlak olmuş həmyerlimiz Rauf Babaşovun da xatirəsi bu kitabda geniş yer almışdır:

***Yaranışdan sevindin,***
***Hünərindən öyündün.***
***Kəndimin ilk şəhidi,***
***Uca heykələ döndün.***

Əmək veteranı olan Y. Yusifovun bir-birinin ardınca "Ana torpağın əmək adamları", "Mənim alim qardaşım, "Ana Vətən çağırır", "Mənim ömür dünyam" və "Atamı axtarıram"kimi kitabları bir- birini əvəzlədi.

Y.Yusifovun "Atamı axtarıram" kitabını vərəqləyəndə, həqiqətən, onun atasının üzünü belə görmədiyi yada düşür.

Atası İsifalı kişi 1939-cu ildə Ağ Fin - Sovet müharibəsinin iştirakçısı olmuşdur. 1940-cı ilin sonunda Vətənə dönmüş və 1941-ci ilin iyun ayında cəbhəyə yola düşmüşdür. Axırıncı məktubu 1942- ci ilin yanvar ayında Ukraynanın Melitopol şəhərindən gəlmişdir. Sonra isə şəhər uğrunda gedən döyüdə itkin düşdüyü bildirildi:

***Atamı axtarıram,***
***Melitopol elində.***
***Burda dili lal olur,***
***Çəmənin də, çölün də***

Yalnız Yusif onun bir şəklini əldə etmiş, sevincini onunla bölmüşdür. Onun vətənə bağlılığı həmişə hiss olunurdu. Böyük Vətən müharibəsinin 40 illiyi ilə əlaqədar həlak olanların xatirəsini əbədləşdirmək üçün doğma kənddə "Naməlum abidə" ucaldıldı. Təşəbbüsçüləri artıq dünyalarınl dəyişmiş Mikayılov Seyidməmməd və Yusifov Yusif oldu. Həmin abidə kənd əhalisinin ziyarətgah yerinə çevrilmişdir.

Yusifovun bu əməyi həmişə qiymətləndirilmişdir. O, həm Yazıçılar, həm də, Jurnalistlər Birliyinin üzvi idi. Məktəbdə tədbirlər zamanı şagirdlər çox vaxt Yusif Yusifovun kitablarına müraciət edirlər. Onun kitablarına elm adamları da yüksək qiymət vermişdir.

Respublika Xatirə Kitabı Nəşriyyatının baş redaktoru N. Həsənəliyev: - Belə xatirə kitabları gənclərimizin hərbi vətənpərvərlik tərbiyəsində müstəsna rol oynayır. Bunun davamlı olmasını arzulayıram.

Filologiya elmlər namizədi F. Əsgərli: - Qələm dostumuz Yusif Yusifovun kitabları müqəddəs və mənalı fəaliyyətə həsr edilmişdir. Bu əsərləri ilə bir qəhrəmanlıq dastanı yaratmışdır.

Coğrafiya elmləri namizədi, dosent R. Əhlimanov- Yusif müəllimin imzası mənə çoxdan tanışdır. Həmyerlimin məqalələrini həmişə "Yeni Şirvan" rayon qəzetindən izləyirdim. Yaxşı bir yazar olduğuna inanırdım. O, bunu öz kitabları ilə bir daha sübüt etdi.

Yusif Yusifov 2011-ci il dünyasını dəyişdi. Bu gün onun ömür-gün yoldaşı Mirəs xala övladları və nəvələri ilə bu ocağın işığını şölələndirməkdədir.

***Məhəmməd Bayramov***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) öz fəaliyyətini davam etdirməkdədir

*Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzinin fəaliyyətinə dair*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına cavab olaraq, Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatları və hərəkatları tərəfindən yaradılmış Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi (AKƏM) öz fəaliyyətini davam etdirməkdədir.

Yeni növ koronovirus infeksiyasının yarada biləcəyi təhlükə ilə mübarizədə dövlət tərəfindən həyata keçirilən tədbirlərin dəstəklənməsi məqsədilə 27 mart 2020-ci il tarixində formalaşan və fəaliyyətində "ASAN Könüllüləri" Gənclər Təşkilatı, "Regional İnkişaf" İctimai Birliyi, "BİR Tələbə-Könüllü" Proqramı, "Könüllü DOST" Proqramı, "Aqrar İnkişaf Könüllüləri" İctimai Birliyi, "Nəqliyyat Könüllüləri" Proqramı, Bakı Şəhər Halqası Könüllüləri, "Miqrasiya Könüllüsü" İctimai Birliyi, "Könüllü gömrükçü" Dəstəsi, "Turizm Könüllüləri" İctimai Birliyi, "Diplomatiya Könüllüləri" Qrupu, "Ekokönüllüləri" Qrupu, "Azərbaycan Diaspor Könüllüləri" Proqramı, "SƏLİS Könüllüləri" İctimai Birliyi, "Azərbaycan İdman Könüllüləri" İctimai Birliyi, "AFFA və Avro-2020" Könüllülər Proqramı və "Gənc Könüllülər" Hərəkatı Mərkəzi və digər təşkilat və hərəkatların iştirak etdiyi Mərkəzin işinin əlaqələndirilməsi AR Gənclər Fondu tərəfindən həyata keçirilir.

AKƏM-in çətiri altında keçirilən aksiyalar çərçivəsində könüllülər tənha yaşlılara, aztəminatlı ailələrə baş çəkir, onların zəruri ehtiyaclarının qarşılanmasına köməklik göstərir, həmçinin koronavirus infeksiyası ilə əlaqədar olaraq qan qıtlığının təcili qana ehtiyacı olan şəxslərin həyatı üçün yaratdığı təhlükənin aradan qaldırılmasına fəal töhfə verirlər. Qısa zamanda AKƏM tərəfindən respublikanın demək olar ki, bütün şəhər və rayonlarında könüllülər səfərbər olunmuş, onların əlaqələndirilməsi və lazımi fəaliyyətlərə yönləndirilməsi həyata keçirilmişdir.

"Böyüklərimizi qoruyaq!" devizi altında paytaxt və regionlarda könüllülər minlərlə tənha ahılların, aztəminatlı ailələrin, şəhid ailələrinin, fiziki məhdudiyyəti olan şəxslərin evlərinə baş çəkmiş, onlara müxtəlif ərzaq və gündəlik tələbat məhsullarından ibarət bağlamaların çatdırılmasında köməklik göstərmişlər. Ümumilikdə, ölkəmizin 28 şəhər və rayonunda minə yaxın könüllü fəaliyyətə cəlb olunaraq həssas kateqoriyadan olan 6254 ailəyə dəstək göstərilməsində iştirak etmişdir.

8 aprel tarixində başlayan "Könüllü Qonşu" aksiyası çərçivəsində 44 şəhər və rayonda könüllülər tərəfindən məhəllə və binaların girişində xüsusi elanlar vasitəsilə əlaqə nömrələri paylaşılmış, ehtiyacı olan şəxslər barədə məlumat verilməsi xahiş edilmişdir. Bu nömrələrə daxil olan zənglər əsasında könüllülər vətəndaşların öz vəsaiti hesabına gündəlik ərzaq məhsullarının, dərman vasitələrinin alınmasına və kommunal ödənişlərinin həyata keçirilməsinə köməklik göstərirlər.

AKƏM çərçivəsində digər bir layihə ölkədə qan qıtlığı səbəbindən talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkən, təcili əməliyyata və bununla əlaqədar qana ehtiyacı olan şəxslərin həyatı üçün yaranan təhlükənin aradan qaldırılmasında könüllülərin iştirakı ilə bağlı olmuşdur. 8 aprel tarixində Azərbaycan Könüllülərinin Əlaqələndirmə Mərkəzi Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı ilə birlikdə "Könüllü Donor" aksiyasına start vermişdir. Bu nəcib aksiya çərçivəsində könüllülər, Qan Bankının paytaxtda və regionlarda yerləşən bölmələrində qanvermə aksiyasında fəal iştirak etmişlər.

Könüllülüyün həqiqətən də könül işi olduğunu sübut edən gənclərin fəaliyyəti bununla yekunlaşmır. Onlar əhali arasında pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılması, küçədə maskasız gəzən şəxslərə tibbi maskaların paylanması, həmçinin günümüzün görünməyən qəhrəmanları olan polis və tibb işçilərinə könüllülər adından təşəkkür mesajlarının çatdırılmasında da böyük həvəslə iştirak edirlər.

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qobustan rayon Polis Şöbəsində vakant mülki işçi vəzifələrinə "polisə ictimai dəstək" xidmətinə qəbulla əlaqədar müsabiqə elan edir

"İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Qobustan rayon Polis Şöbəsi vakant mülki işçi vəzifələrinə (polisə içtimai dəstək) xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

Müsabiqədə həqiqi hərbi xidmət keçmiş, yaşı 20-dən 25 -dək, boyu 180 sm və yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, tam orta, orta ixtisas və ali təhsilli, atletik bədən qurluşa malik, "Azərbaycan Respublikasının Daxili İşlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə " ilə müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (oğlanlar) iştirak edə bilərlər.

Qeyd edilən tələblərə cavab verən və işə qəbul olunan şəxslər polis orqanlarının rəhbərliyi ilə ictimai asayişin qorunması üzrə funksiyaların (polisə ictimai dəstək) yerinə yetirilməsinə cəlb olunacaq, xüsusi geyim forması ilə təmin ediləcəklər. Onlara Daxili İşlər Nazirliyinin mülki işçiləri üçün müəyyən edilmiş təminatlar şamil olunacaq.

İctimai asayişin qorunmasında 2 il əməkdaşlıq etmiş şəxslərə daxili işllər orqanlarında xidmətə qəbul zamanı üstünlük veriləcək.

***Əlavə məlumat üçün Qobustan rayon Polis Şöbəsinin əlaqə telefonları :***
***Tel:02024-5-25-02; 02024-5-00-83***
***Mobil:050-399-48-32***

# Zibilxanaların, kol-kosun yandırılmasının qarşısı alınmalıdır!

Fövqəladə Hallar Nazirliyinin "112" qaynar xəttinə hardasa zibilliklərin, kol-kosun yanması ilə bağlı hər gün məlumat daxil olur. Yaşayış evlərində, iri ticarət müəssisələrində, zavodlarda və digər böyük obyektlərdə baş verən yanğınlar insanları həyəcanlandırdığı halda, zibilliklərin, kol-kosun yanması çoxlarına əhəmiyyətsiz görünür.

Əslində isə hər bir yanğın fövqəladə hadisədir. Yanğının böyüyü, kiçiyi yoxdur. Çünki çox vaxt böyük yanğınlar kiçik yanğınlardan törəyir. Əgər yol kənarında kol-kos yanaraq meşəyə keçirsə və yüzlərlə hektar meşə sahəsi məhv olursa, yaxud biçilmiş, məhsulu yığılmış taxıl sahəsi yandırılırsa və bu yanğın ot tayasına, evə keçirsə və ekologiyaya ziyan dəyirsə, buna əhəmiyyətsiz yanğın demək olmaz.

Fövqəladə Hallar Nazirliyində "112" qaynar xəttinə daxil olan hər bir məlumata, o cümlədən yanğın hadisəsinə fövqəladə hadisə kimi çox önəm verilir. Yanğın haqqında məlumat daxil olan kimi dərhal Dövlət Yanğından Mühafizə Xidmətinin hadisəyə ən yaxın məsafədə yerləşən yanğın hissəsi məlumatlandırılır.Həyəcan siqnalını hər saniyə hazır vəziyyətdə gözləyən əməkdaşlar heç bir dəqiqə keçməmişhadisə yerinə yollanırlar. Yanğının həcmi kiçik olsa da vaxt itirilir, əmək, yanacaq sərf olunur, dövlət vəsaiti xərclənir. Biz hələ hər yanğından sonra yanğın avtomobilinin yenidən su ilə doldurulmasını, yuyulub təmizlənməsini, yanğın şlanqlarının qurudulmasına sərf olunan yanğınsöndürən əməyini demirik. Axı onlar bu enerjini, əməyi insanların səhlənkarlığı, bəzən də qəsdən yandırdığı zibilliklərin, qurumuş kol-kosun, biçilmiş taxıl sahələrinin söndürülməsinə deyil, digər baş verən yanğınların söndürülməsinə sərf edə bilərlər.

Göründüyü kimi məişət tullantılarının, qurumuş kol-kosun, biçilmiş taxıl sahələrinin yandırılması yolverilməzdir və bu kimi yanğınlar ya onun törədəcəyi fəsadları bilməməzlikdən, yaxud da biləərəkdən törədilir.

Əkin sahələrinin yandırılması, həmçinin nəticə etibarı ilə kənd təsərrüfatına yararlı torpaq sahələrinin üst münbit qatının korlanmasına, əkin yerlərində torpaqların qida maddələri balansının pozulmasına gətirir. Həmçinin, əkin sahələrinin, qurumuş kol-kosun yandırılması yaxınlıqda yerləşən digər sahələrdə, yaşayış məntəqələrində və meşə ərazilərində yanğın təhlükəsi yaratmaqla yanaşı, mühəndis kommunikasiya sistemlərinin sıradan çıxmasına səbəb olur. O cümlədən mazut gölməçələrinin də yandırılması ekologiyanın çirklənməsinə, insanların sağlamlığına təsir edir. Odur ki, əhali və yerli özünüidarəetmə orqanları arasında bu istiqamətdə mütəmadi qaydada maarifləndirmə və təbliğat işlərinin aparılmalı, bu cür yanğınların qarşısı alınmalıdır.

***FHN DYNX Yanğına Qarşı Təbliğat Şöbəsi***

## Qobustan rayon prokurorluğu əməkdaşları tərəfindən 2020-ci ilin aprel-iyun aylarında vətəndaşların yaşayış yerləri üzrə qəbuluna dair QRAFİK

| Sıra №-si | Vətəndaşların qəbulu keçirilən ərazi | Qəbulun keçirilmə vaxtı | Vətəndaşları qəbul edən məsul şəxs |
|---|---|---|---|
| 1. | Qobustan rayonu İHB-nin Poladlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 24.04.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 2. | Qobustan rayonu İHB-nin Ərəbşalbaş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 29.05.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |
| 3. | Qobustan rayonu İHB-nin Qurbançı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyi | 25.06.2020 11:00-13:00 | Rayon prokuroru Ramin Hüseynov |

**Qeyd:** Kəndlərdə qəbulların keçirilməsi ilə əlaqədar əvvəlcədən rayon İHB-nin kəndlər (şəhər) üzrə inzibati ərazi dairəsi üzrə nümayəndəliklərinə və bələdiyyələrə məlumat verilməlidir

***Qobustan rayon prokuroru kiçik ədliyyə müşaviri Ramin Hüseynov***

## ELANLAR

Bağırov İsmayıl Əbülfəz oğluna və ailə üzvlərinə DT və XK tərəfindən verilmiş, Qobustan şəhərində yerləşən JN-0476 nömrəli kod 30701006 torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır

Ağabalayev Firudin Fazil oğluna məxsus A №861245 nömrəli şəhadətnamə itib. Tapanlardan xahiş olunur redaksiyamızla əlaqə saxlasınlar.

# 2020-ci ilin iyun ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannanmələr və ödənilməli vergilər barədə

Gəlir vergisi (Xüsusi notariuslar üzrə): Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

Gəlir vergisi (İdman mərc oyunları, lotereyalar, habelə digər yarışlar və müsabiqələr üzrə): İdman mərc oyunlarından, lotereyalardan, habelə digər yarışlar və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman oyunları ilə əlaqədar aparılan idman mərc oyunlarından, lotereyaların keçirilməsindən, habelə digər yarışlardan və müsabiqələrdən uduşlar (mükafatlar) əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar. Lotereyaların keçirilməsindən, digər yarışlardan və müsabiqələrdən gəlir (mükafat) rezident şəxslər tərəfindən ödənildiyi halda ödəməni həyata keçirən şəxslər, həmin gəlirlər Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezident şəxslər tərəfindən ödənildikdə isə bu gəliri əldə edən şəxsin bank hesabının olduğu yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru ödəmə mənbəyində gəlir vergisini hesablayaraq tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və həmin müddətədək "Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməyə borcludurlar.

Əlavə dəyər vergisi: ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

Aksizlər: Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

Yol vergisi üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Yol vergisinin bəyannaməsi"ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

Mədən vergisi: Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

Sadələşdirilmiş vergi (Daşınmaz əmlakın təqdim edilməsi üzrə): Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Daşınmaz əmlakın təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq "Daşınmaz əmlak təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan sadələşdirilmiş verginin bəyannaməsi"ni vergi orqanına verməyə borcludurlar.

Sadələşdirilmiş vergi (Pul vəsaitlərinin nağd qaydada çıxarılması üzrə): Bu fəaliyyət üzrə sadələşdirilmiş vergi üçün hesabat dövrü aydır. Hüquqi şəxslərə və fərdi sahibkarlara bank hesablarındakı pul vəsaitlərinin nağd qaydada verilməsini həyata keçirən yerli banklar, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən 1 faiz hesablanan vergini vəsaiti alan şəxsin bank hesabından tutulur, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergi dövlət büdcəsinə köçürülür və həmin müddətədək "Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi" vergi orqanına təqdim edilir.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi: Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.**

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti

www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Son dəqiqə" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000

E_mail:qobustanqazeti@mail.ru